Rasim Qaraca

# Savaş



(Hekayə)

***Yuxudan qonşu arvadların səsinə oyandıq. Srağa gündən başlamış savaş hələ də davam edirdi.***

***Hamımızın Gülpəri xala dediyi nənəm-nehrə qadının qışqırmaqdan səsi tutulmuşdu, buna baxmayaraq Hürünü söyməkdən qalmırdı.***

***Kim daha yağlı söyüş söyürdü və kim daha çox yandırıb-yaxırdı, bunu demək çətin idi.***

***Hər halda nə Gülpəri, nə də Hürü söz korluğu çəkmirdilər.***

***Onlar ətrafdakı kişilərdən həya edib o qədər də dərin söyüş söymürdülər, bununla belə hər ikisi bir-birini həyasızlıqda və abırsızlıqda günahlandırır, biri o birinin düz yolun yolçusu olmadığına eyham vururdu.***

***Səhər yeməyimi yeyib qurtarana qədər bir neçə nadir söyüşü öz bloknotuma qeyd elədim.***

İşə getməli olduğuma təəssüflənirdim – mən gələnə qədər onların savaşı sona yetəcəkdi.

Doğrudan, heç vaxt görmədiyim, öz qeyri-adiliyi ilə adamın hisslərini coşduran bir səhnə idi.

Tükənmək bilməyən qadın hikkəsinin nə demək olduğunu əyani şəkildə görürdüm.

Üstəlik nə qədər yeni və çoxmənalı sözlər işlədirdi bu qadınlar.

Bütün bunlara görə qapıdan çıxha-çıxda savaşın heç olmasa bir gün də uzanmasını arzuladım.

Həmin gün bütün işlərim yaxşı gətirirdi. Təsadüf idi, yoxsa nə?

Mənə elə gəlirdi, məhz qonşuların dalaşması bütün hisslərimi həyata, zəmanənin ritminə uyğun bir şəkildə kökləyirdi, elə bil ki, səhər obaşdan aldığım savaş təəssüratı daxilimdə həyatın mübarizə olduğu haqqında daimi bir impuls buraxırdı və hər hansı bir hərəkətim məni müvəffəqiyyətə yaxınlaşdırırdı, insanlarla münasibətdə psixoloji üstünlüyüm açıq-aşkar özünü göstərirdi.

Diqqət edib görürdüm, ətrafımdakı adamlar həddən artıq tənbəl, mübarizə üçün yararsız və sözün geniş mənasında, xeyli qorxaqdırlar, apaydın görünürdü, onların əsil savaşdan heç xəbərləri yoxdur.

Axşam evə qayıdanda səs-səmir kəsilmişdi. Eşitdim, nahar fasiləsinə qayıdan Tapdıq arvadı Hürünü ölüncə döyüb.

Yazıq arvadın ağzından axan qanı kəsə bilmirlərmiş.

Gecəyə qədər sükut davam elədi. Artıq yatmağa hazırlaşırdıq - yer salınmış, milçətkənlər qurulmuşdu.

Eyvanın işığını da söndürmüşdük. Mən pilləkəndə oturub yatmaqdan qabaq bir siqaret yandırmışdım, heyva ağacının yarpaqları arasındakı bir parça açıq göy üzündə işıldayan ulduzlara baxıb dünyanın işləri haqqında fikirləşirdim.

Üç gün idi evdə heç bir qanqaraldıcı söhbət olmurdu, sanki beynim də açılmışdı, iştahım yaxşılaşmışdı, əvvəlki günlərdən fərqli olaraq rahat yatırdım.

Birdən qonşu həyətdən ürəkparçalayan hönkürtü səsi eşidilməyə başladı. Ağlayan Hürü idi.

O, bütün qonşuların eşidə biləcəyi səslə "Hamarın qəhbəsindən" ötrü onu əzişdirən ərini binamus, biqeyrət adlandırırdı.

Öz kor bəxtindən, "itə-qurda" qismət olmasından gileylənirdi, eyni zamanda Gülpərinin də ünvanına təzə-təzə söyüşlər göndərməyi yaddan çıxarmırdı.

Deyəsən Tapdıq arvadının səsini kəsə bilməyəcəyini yəqinləşdirib cıqqırını da çıxarmırdı, hərdən-bir analarının böyrünə qısılıb ağlaşan İlhamə ilə Çiçəyin siçan civiltisinə oxşayan səsləri eşidilirdi.

Dalaşan insanların qonşuluğunda yaşamaq necə də maraqlı idi. Özünü əlçatmaz bir yüksəklikdə hiss edirsən.

Sanki bütün şəhər bombardman edilir, sənin evin isə sağ-salamatdır.

Tarix boyu müharibələrdən sonra nə üçün dahilər yetişdiyini indi-indi anlayıram.

Həmin axşam deyəsən Gülpərinin qələbəsinin son həddi idi. İki çəpər o tərəfdən batıq səsi ilə Laləzər adlı rəfiqəsini çağırıb qatıq çalmaqdan ötrü damazlıq istədi.

Bu elə bir vaxt idi ki, artıq Hürünün hikkəsi səngimişdi, daha səsi eşidilmirdi.

***Mən özlüyümdə gecənin bir aləmində iki çəpər o tərəfdəki qonşudan damazlıq istəməyin nə demək olduğunu yaxşı başa düşürdüm.***

***Bu, Hürünü yandırıb-yaxmağın dolayı bir üsulu idi: yəni, bax mən sağ-salamatam, öz işimdə-gücümdə, qatıq çalıb dovğa bişirməyimdəyəm.***

***Bir sözlə, yəni sən can hayındasan, mən qarın hayında.***

***Görünür, Hürü bu gecəki məğlubiyyətlə barışıb daha səsini çıxarmadı. Bütün qüvvəni səhərə saxladı.***

***Səhər tezdən Hürün ağır artilleriya qurğuları iki hədəfə vururdu.***

***Bu dəfə söyüş mərmiləri "arvadının ipini yığa bilməyən" Novruzun da başına yağırdı. Sən demə, Novruz evdə toyuq, çöldə xoruz imiş.***

Sözün düzü, Novruzun arvadını həmişə süpürgə ilə döydüyünü də biz qonşulardan heç birimiz hələ bu vaxta qədər bilmirdik.

Görünür elə məhz bu söz səhər yeməyini yeməkdən ötrü təzəcə süfrəyə oturmuş Novruzun heysiyyətini yerlə-yeksan etdi.

Yəqin ki, o, qonşular arasında rüsvayçılığın günahının arvadında olduğunu dedi. Və çox güman, Gülpəri də həmişə olduğu kimi, əlüstü ərinin cavabını qaytardı.

Bundan sonra isə Novruz dilinə əziyyət verməyib yumruqlarını işə saldı.

Allah sən saxla, o, fəqir-füqara hesab elədiyimiz Novruzun o dərəcədə hirsləndiyini heç zaman heç birimiz görməmişdik. Çəpərlərin labirintində Gülpəri qaçır, Novruz qovurdu.

Gülpəri batıq səsilə bütün qonşuları köməyə çağırırdı. Körpəcə uşaqları evin məhəccərinə çıxıb "ata", "ana" deyə qışqırışırdılar.

Ancaq biz özümüzü çatdırana qədər Novruz Gülpərini yerə yıxıb qarnına bir-iki təpik ilişdirə bilmişdi.

Həmin gün döyüşkən əhval-ruhiyyədə idim. Məsələn, maaş alarkən özümdə cəsarət tapıb kassirdən pulumun qalığını istədim.

Müşavirədə isə öz çıxışımla hamını heyrətə gətirdim. Hətta direktorun mənə "siz" deyə müraciət etməsi nəzərimdən qaçmadı.

İşdən çıxandan sonra isə mağazadan köhnəlmiş talonlarla şəkər tozu ala bildim.

Hər hansı məsələdə baxışlarım xeyli aydınlaşmış, həddən artıq diqqətli olmuşdum.

Açığını deyim, özümü cəbhədən gəlmiş əsgər kimi hiss edirdim.

Hətta fiziki cəhətdən də xeyli qıvraq idim.

Evə çatmağa tələsirdim. Küçədə, bayırda bir dəqiqə də artıq vaxt itirməyi özümə rəva görmürdüm. Sanki sevimli bir macəra filminin növbəti seriyasına baxacaqdım.

Hadisələri ikinci bir adamın dilindən eşitməkdənsə, öz gözlərinlə görmək daha məqsədəuyğun idi.

Evə çatınca, ilk növbədə son xəbərlərlə maraqlandım. Məlum oldu ki, Gülpəri döyüləndən sonra yataqda çox qalmağı şəninə sığışdırmayıb.

Bir qazan dovğa bişirib, onu yoluxmağa gələn qonşu arvadları o ki var, yedirib-içirib.

Batıq səsi ilə məzə verib arvadları güldürür, bu yolla Hürüyə acıqcıcıq verirmiş.

Hürü isə öz növbəsində Gülpərinin həyətinə toplaşan qadınları "bir yuvanın quşları" adlandırmış, Allahtəalaya asi düşüb lotu-potu yığıncağına urcah olduğu üçün qarğamışdı.

Tezliklə onun söyüşlərinə davam gətirməyib qonşu arvadlar Gülpərinin həyətindən dağılışmışdılar.

İndi isə Hürü, görünür, Gülpərinin səsinin tamam-kamal batdığından istifadə edib bir ayrı sürət götürmüşdü.

Guya öz-özünə danışırdı, halbuki dilindən çıxan hər kəlmə Gülpəriyə ünvanlanmışdı.

Arada bir onun batıq səsini təhqiramiz söyüşlərlə yada salırdı. Və bu söyüşləri xüsusi yandırıcı vurğu ilə deyirdi.

Kim nə deyir desin, həmin söyüşləri eşitmək adama xususi ləzzət edirdi.

Qınayan olmasaydı, bərkdən qəh-qəhə çəkib gülərdim. İlahi, insanın adi bir çatışmazlığını nə qədər hallandırmaq olardı, ona nə qədər söyüş qoşmaq olardı.

Kaş, bu söyüşləri kağız üzərinə yazmaq mümkün olaydı.

Ancaq, görünür, Hürünün təkcə cingiltili səsi Gülpəriyə öldürücü zərbələr vururdu.

Bu, artıq əməlli-başlı məğlubiyyət idi. Gülpərinin təslim olmaqdan və onun bütün söyüşlərini danışıqsız qəbul etməkdən başqa çarəsi qalmamışdı.

Onun girib-çıxmaya düşməsi, qapını zərblə çırpması, uşaqları şapalaqlayıb ağlatması, əslində, baş vermiş məğlubiyyəti daha da dərinləşdirirdi.

Heç kəs Gülpərinin öz rəqibinin qarşısını almaq, onun səsini kəsmək üçün nəsə bir şey fikirləşib tapacağını ağlına belə gətirmirdi.

Ancaq Gülpəri qadın fəndgirliyinin hüdudsuz olduğunu bir daha sübut etdi...

***O, bir vedrə götürüb danqıltı ilə Hürnisə ilə özü arasında olan daş hasarın üstünə qoydu və var gücünü toplayıb dedi:***

***- Danış, eşidir!***

***Sözün düzü, heç kəs bu davadalaşın belə bir sonluqla başa çatacağını gözləmirdi. Hürüyə bundan daha böyük zərbə vurmaq mümkün deyildi.***

***Səsi birdən-birə xırp kəsilmişdi. Nə qədər gözləsək də, daha Hürüdən bir səs gəlmədi.***

***Səsi batmış da olsa, mənim düşüncəmə görə, Gülpəri bu savaşdan qalib çıxmışdı. Elə bütün qonşuların düşüncəsinə görə.***

***Bu, bəşər tarixində çox nadir dava-dalaşlardan biri idi.***